DÜNYA

Tramp: Mask Ukraynada 'Starlink'ə məhdudiyyətləri aradan qaldırıb

Oktyabr 23, 2026



Donald Tramp

ABŞ prezidenti Donald Tramp "SpaceX" şirkətinin rəhbəri İlon Maskın Ukraynada peyk rabitə sisteminə məhdudiyyətləri aradan qaldırdığını iddia edib.

"O, sistemi əvvəlki vəziyyətinə qaytardı", – Tramp oktyabrın 22-də jurnalistlərə bildirib.

Bundan bir neçə saat əvvəl isə Ukrayna prezidenti Volodimir Zelenski CNN-ə ölkəsində bu xidmətə çıxışda problemlərin qaldığını demişdi.

Məsələdən məlumatlı Ukrayna rəsmisi AzadlıqRadiosuna söyləyib ki, ölkənin bəzi hərbi bölmələri internetin sürətinin artdığını bildirsələr də, bu artım hər yerdə müşahidə olunmur.

Rəsmiyə görə, internetin sürəti Rusiyanın reaktiv mühərrikli dronlarının qarşısını almağa yetmir. Rusiya son aylar Ukraynaya qarşı bu dronlardan daha çox istifadə edir. Hücumlar ölkənin logistika, enerji və mülki infrastrukturuna böyük ziyan vurub.

22 oktyabr

ABŞ Ukraynanın 'Starlink' sualına hələ də cavab vermir

Ukrayna ordusunun istifadə etdiyi peyk rabitəsinə qoyulan məhdudiyyətlərlə bağlı Kiyev hələ də Pentaqondan və İlon Maskın "SpaceX" şirkətindən cavab almayıb. Bunu AzadlıqRadiosuna Ukraynanın Vaşinqtondakı baş diplomatı bildirib. ABŞ Konqresində isə həm demokratlar, həm də respublikaçılar məsələ ilə bağlı araşdırma aparılmasını tələb edirlər.

"Sürət məhdudiyyətləri aradan qaldırılmayıb", – Ukraynanın ABŞ-dəki müvəqqəti işlər vəkili **Denis Senik** oktyabrın 21-də bildirib. O, Kiyevin nə Pentaqondan, nə də "SpaceX"dən cavab ala bildiyini əlavə edib.

"Starlink" və onun hərbi məqsədlər üçün nəzərdə tutulmuş "Starshield" sistemi ətrafındakı mübahisə bir sıra suallar doğurub: məhdudiyyətlərə kim icazə verib, Tramp administrasiyasının bundan əvvəlcədən xəbəri olubmu və bu dəyişikliklər Ukraynanın Rusiya hücumlarından müdafiə imkanlarına necə təsir göstərib?

Konqresin nümayəndə heyəti Kiyevdə olub

Kiyev Rusiyanın hava hücumlarından müdafiə olunmaq üçün bu sistemdən çox asılıdır. Problemlər barədə ilk məlumatlar isə oktyabrın 13-14-də yayılıb.

Konqres nümayəndə heyətinin 13-16 oktyabr tarixlərində baş tutan səfəri zamanı "Starshield" sisteminə qoyulan məhdudiyyətlər qüvvədə olub. Bunu oktyabrın 21-də keçirilən brifinqdə bu yaxınlarda Kiyevdən qayıtmış Senat demokratlarının köməkçilərindən biri bildirib.

Nümayəndə heyətinin qiymətləndirməsinə əsasən, bu məhdudiyyətlər həm ukraynalı mülki şəxslərin, həm də ABŞ personalının həyatını təhlükəyə atıb.



Saatda 280 mil (təxminən 450 kilometr) və daha yüksək sürətlə hərəkət edə bilən reaktiv mühərrikli Rusiya istehsalı "Qeran" dronları xüsusilə böyük problem yaradıb. Məlumatlara görə, "Starshield" sistemində sürət həddi əvvəlcə saatda təxminən 60 mil (97 kilometr), daha sonra isə 100 mil (161 kilometr) olaraq müəyyən edilib. Bu isə o deməkdir ki, daha sürətlə hərəkət edən obyektlərlə peyk rabitəsi kəsilə bilər.

Araşdırma tələbi

Demokratlar və bəzi respublikaçılar peyk rabitəsinin sürətinin azaldılması ilə bağlı araşdırma aparılmasına çağırıblar.

Kaliforniyadan olan senator **Adam Şiff** sosial şəbəkədə yazıb ki, bir-birinə zidd açıqlamalar Senatda hərtərəfli araşdırma aparılmasını zəruri edir. O, Maskın and içərək ifadə verməsini tələb edib.

Arizona ştatından olan senator **Ruben Qalyeqo** da Maskı qərarını könüllü şəkildə izah etməyə çağırıb.

Oktyabrın 21-də dövlət katibi **Marko Rubio** prezident Donald Trampın və ya ABŞ hökumətindəki hər hansı bir şəxsin bu sistemlərdə dəyişiklik tələb etmədiyini deyib.

Mumbayda çıxış edən Rubio "The Wall Street Journal" qəzetində çıxan məqaləni oxumadığını deyib. Həmin məqalədə Maskın sistemin sürətini azaltmaq barədə şəxsən göstəriş verdiyi iddia olunurdu. **"Nə ABŞ prezidenti, nə də hökumətimizdən hər hansı bir şəxs bu sistemdə dəyişiklik tələb edib"**, - deyə Rubio bildirib.



‼️ **#Київ: внаслідок російського обстрілу загинула 1 людина, 22 постраждали, серед них 4 дітей**

З вечора 21 жовтня російські війська завдали балістичних ударів по шести районах столиці. Виникли пожежі та руйнування.

📍 **Дніпровський район.** Загинула людина, дитину госпіталізували. Пошкоджено будинки й автомобілі, горіли житлові та нежитлові будівлі. Постраждали ще п'ятеро людей.

📍 **Дарницький район.** Пошкоджено транспортну інфраструктуру. Постраждалих немає.

📍 **Святошинський район.** Горіли нежитлова будівля та ресторанний комплекс. Пожежу на площі 1100 кв. м ліквідовано.

📍 **Оболонський район.** Пошкоджено нежитлові будівлі, виникли пожежі. Постраждали двоє людей. Пожежі ліквідовано.

📍 **Печерський район.** Пошкоджено будівлі, автомобілі швидкої допомоги та монастир. Постраждали восьмеро людей, серед них троє дітей.

Rusiyanın Ukraynaya hücumlarından dörd nəfər həlak olub

Oktyabrın 22-nə keçən gecə Rusiya qoşunları **Kiyev**ə növbəti dəfə hücum edib. Hücum zamanı bir nəfər həlak olub, dördü uşaq olmaqla 22 nəfər xəsarət alıb. Fərdi evlərə, avtomobillərə, yaşayış və qeyri-yaşayış binalarına, həmçinin nəqliyyat infrastrukturuna ziyan dəydiyi açıqlanıb.

Xarkov vilayətinə zərbələrdən bir qadın həlak olub, 13 yaşlı oğlan isə yaralanıb. Digər xəsarət alanların da olduğu bildirilir.

Donetsk vilayətində Rusiyanın açdığı atəş nəticəsində iki nəfər həlak olub. Son sutka ərzində vilayətdə daha 9 nəfər yaralanıb.

Ukraynadakı itkilərlə bağlı xəbərlər yerli rəsmilərə istinadən yayılıb.

Buna da bax:

Putin noyabrda ABŞ-Ukrayna-Rusiya danışıqlarının bərpasına razılıq verib

Tramp: 'İstəyirik ki, Zelenski Rusiya ilə razılığa gəlsin'

Rusiya ABŞ-yə ilk dizel tankerini yola salır

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur